**Ə M R**

**№160116400013**

**Bakı şəhəri** **‹‹09› fevral 2016-cı il**

Sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi və "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli Fərmanında göstərilmiş tapşırıqların icrası məqsədilə Azərbaycan Respublikası Prezidentinin 31 avqust 2009-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 15.5-ci bəndini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı Komitənin və onun strukturuna daxil olan və tabeliyindəki qurumlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərə baxılması məqsədilə Apellyasiya Şurası yaradılsın və Apellyasiya Şurasının sədri Komitə Aparatının rəhbəri Arif Əşrəfov təyin edilsin.

2. **"**Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Apellyasiya Şurası haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. Apellyasiya Şurasının sədrinə tapşırılsın ki, Apellyasiya Şurasının digər üzvlərinin, habelə Apellyasiya Şurasının Katibliyinin rəhbərinin və tərkibinin təsdiq edilməsi ilə bağlı Komitə sədrinə təkliflər versin.

4. Ümumi şöbəyə (X.Həsənovaya) tapşırılsın ki, aidiyyəti struktur bölmələrini və şəxsləri bu Əmrlə tanış etsin.

5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Sədr** **Ramiz Həsənov**